# “Səma və dəniz” stimullaşdırıcı tirajlı lotereyasında

# İŞTİRAK ŞƏRTLƏRİ

## 1. Ümumi məlumat

1.1. Stimullaşdırıcı lotereyanın adı: “Səma və dəniz”.

1.2. Stimullaşdırıcı lotereya təşkilatçısının adı: “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti.

1.3. Stimullaşdırıcı lotereya təşkilatçısının VÖEN-i: 9900000831.

1.4. Stimullaşdırıcı lotereya təşkilatçısının hüquqi ünvanı: AZ1095, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti, ev 11; Telefon: 012 497 26 21.

1.5. Stimullaşdırıcı lotereya təşkilatçısının müvafiq fəaliyyət növünün adı: Hava yolu ilə sərnişin daşınması.

1.6. Stimullaşdırıcı lotereyanın keçirilmə forması: tirajlı

1.7. Stimullaşdırıcı lotereyada iştirak müddəti: 08.07.2026 – 08.09.2026.

1.8. Stimullaşdırıcı lotereyanın keçirilmə tarixi: 28.09.2026.

1.9. Stimullaşdırıcı lotereyanın keçirilmə yeri: Azərbaycan Respublikasının ərazisi.

1.10. Stimullaşdırıcı lotereyanın keçirilmə məqsədi: “Azərbaycan Hava Yolları” QSC-nin məhsul və xidmətlərinin satışının və müştərilərin aktivliyinin təşviqi.

1.11. Əlaqəli şəxs: Cavid Hüseynzadə, tel.: +994 51 255 01 77.

## 2. İştirak qaydaları

2.1. Bu Şərtlərin 1.7-ci bəndində göstərilən tarixlər arasında “Azərbaycan Hava Yolları” QSC-nin “AZAL Miles” loyallıq proqramı çərçivəsində lotereya bileti şərtlərinə uyğun olaraq uçuş milləri qazanan vəistifadə edən hazırkı və yeni “AZAL Miles” iştirakçıları lotereyada iştirak hüququ qazanır.

2.2. Lotereyada iştirak etmək üçün şəxs “AZAL Miles” proqramında iştirakçı olmalı və kabinetində ona təqdim olunan xüsusi pəncərədə lotereya şərtləri ilə tanış olaraq, müvafiq düymə vasitəsilə iştirakınıtəsdiq etməlidir.

2.3. Lotereya çərçivəsində lotereya bileti (“şans”) qazandıran bütün əməliyyatlar və fəaliyyətlər mütləq şəkildə lotereyanın keçirilmə müddəti ərzində tamamlanmalıdır. Lotereyanın keçirilmə müddəti bitdikdənsonra, tirajaqədərki müddət ərzində həyata keçirilən əməliyyatlar və fəaliyyətlər lotereyada iştirak üçün əlavə şanslar qazandırmayacaq.

## 3. Şansların hesablanması

3.1. Lotereya çərçivəsində iştirakçılar aşağıdakı əməliyyatlar və fəaliyyətlər vasitəsilə şans əldə edə bilərlər. Bir şans bir lotereya biletinə bərabər tutulur.

3.1.1. Mövcud "AZAL Miles" istifadəçisi 1 AZN ödəyərək 30 uçuş mili və 1 şans qazanır.

3.1.2. "AZAL Miles" proqramında yeni qeydiyyatdan keçən şəxs 3 şans qazanır.

3.1.3. Lotereya müddətində "Azərbaycan Hava Yolları" QSC-dən daxili uçuşlar istisna olmaqla, AZAL Miles iştirakçı nömrəsi daxil edilmiş və vəsait ödəməklə və ya topladığı millərdən istifadə etməkləaviabilet əldə edən şəxslər 35 şans qazanır.

3.1.4. Millərlə aviabilet alışı istisna olmaqla, digər mil xərcləmə əməliyyatları üzrə birdəfəyə minimum 500 mil xərcləyən şəxs 1 şans qazanır.

3.1.5. Birdəfəyə minimum 100 uçuş mili qazandıran hər əməliyyat şəxsə 1 şans qazandırır. "AZAL Miles" proqramının tərəfdaşı olan "Nardaran Invest" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən təqdimedilən hər 1 (bir) uçuş mili 1 şans qazandırır.

3.2. Lotereya iştirakçısının əldə etdiyi şansların ümumi sayı lotereya müddətində həyata keçirdiyi hər əməliyyat üzrə qazanılan şansların cəmlənməsi vasitəsilə hesablanır və lotereya üçün yaradılmışsəhifədə əks olunur.

3.3. Lotereyada iştirak üçün "AZAL Miles" proqramının üzvü olmaq, lotereya üçün yaradılmış səhifədə müvafiq düyməni sıxmaqla iştirak etmək və minimum 1 şansa sahib olmaq lazımdır. İştirakçının əldəedə biləcəyi maksimum şans sayına məhdudiyyət qoyulmur.

3.4. Lotereya müddətində müvafiq əməliyyatları icra etmiş "AZAL Miles" üzvü sonradan lotereya səhifəsində iştirakını təsdiqlədiyi təqdirdə, lotereya şərtlərinə cavab verən bütün keçmiş əməliyyatlarına görədə şans qazana bilər.

3.5. Şanslar qazanılma mənbəyindən asılı olaraq minimum 1 (bir) gün maksimum 10 (on) gün ərzində hesablanaraq lotereya səhifəsində əks olunur. Lotereya müddətində icra edilmiş əməliyyata əsasənqazanılmış şanslar lotereya müddəti bitdikdən sonra hesablandıqda belə, tiraj zamanı iştirakçının ümumi şansları siyahısında qeyd olunur.

3.6. Hər bir lotereya bileti 11 (on bir) simvollu unikal elektron kod formatında təqdim olunur.

Misal: AH1C032T71.

3.7. Lotereya biletləri (şanslar) elektron qaydada iştirakçının "AZAL Miles" kabinetində yaradılmış lotereya səhifəsinə yüklənir və orada lotereya biletinin unikal kodu və ümumi biletlərin sayı barədəməlumatlar əks olunur.

## 4. Lotereya şərtləri

4.1. Ev uduşu istisna olmaqla, bir iştirakçı digər lotereya hədiyyələri üzrə yalnız bir dəfə qalib ola bilər (şansların sayından asılı olmayaraq). Ev uduşu üçün hər bir iştirakçı (öncəki seçim zamanı qalib olub-olmamasından aslı olmayaraq) yenidən iştirak edə bilər.

4.2. Lotereyada 18 yaşı tamam olan hər bir şəxs iştirak etmək huququna malikdir.

## 5. Əlavə şərtlər

5.1. Lotereyada “Azərbaycan Hava Yolları” QSC, “Sea Breeze” əməkdaşları və aidiyyəti şəxslər iştirak edə bilməz.

5.3. İştirakçı tərəfindən lotereya müddətində lotereya şərtlərinə və qaydalarına zidd olan üsullarla, habelə qeyri-qanuni üsullarla şansların əldə edilməsi yolverilməzdir.

5.4. Lotereya müddətində AZAL Miles proqramının qayda və şərtlərinə uyğun olaraq, iştirakçının hesab statusu “bloklanmış” və ya “bağlanmış” olduğu halda, şanslar əldə edə bilməzlər. Həmçininlotereyanın bitdiyi tarixdən tiraj tarixinə qədər olan müddət ərzində əgər Lotereya iştirakçısının hesab statusu “bloklanmış” və ya “bağlanmış” olarsa, lotereyanın tirajında iştirak edə bilməzlər.

## 6. Tiraj və hədiyyələr

6.1. Stimullaşdırıcı lotereyanın yekun nəticələrinə əsasən iştirakçılar üçün bir tiraj keçiriləcək.

6.2. Ümumilikdə lotereya dövründə 100 qalib müəyyən ediləcək və hədiyyə qazanacaq. Qaliblərin sayı bu göstəricidən az olarsa, uduş fondunun qalıq məbləği şirkətin sərəncamında qalacaq.

## 7. Uduş fondu

7.1. Heç bir halda bu lotereya üzrə təqdim edilən qeyri-pul uduşlarının dəyərinin pul ekvivalenti iştirakçıya ödənilmir.

7.2. Lotereyada oynanılacaq hədiyyələr, onların sayı və məbləği haqqında məlumat:

| Hədiyyə | Say |
|---|---|

| | |
|---|---|
| Sea Breeze Resort “Park Lane” layihəsindən mənzil | 1 |
| Crocus Fitness Baku 1 illik abunə kartı | 3 |
| 50,000 uçuş milləri | 6 |
| ABB-AZAL Miles Co-brand Infinite kartı | 10 |
| ABB-AZAL Miles Co-brand Platinum kartı | 20 |
| 20,000 uçuş milləri | 50 |
| “AghalarovRest” restoranlar şəbəkəsindəistifadə üçün 150 manat dəyərində kupon | 10 |

*Mənzil haqqında:

- Sahəsi: 36.5 kvm
- Təmirli\Təmirsiz: Təmirsiz
- Dəyəri: 74,825$
- İstismara təhvil tarixi: 2028, 4-cü rüb

## 9. Tirajın keçirilmə tarixi və şərtləri

9.1. Qaliblər 28.09.2026-cı il tarixində Heydər Əliyev Beynəlxalq Aeroportunun 2-ci Terminal binasında tiraj komissiyasının müəyyən olunmuş üzvlərinin iştirakı ilə, fərdi məlumatlardan istifadə etmədən, Təşkilatçı və ya onun təyin etdiyi şəxs tərəfindən tərtib olunacaq xüsusi proqram vasitəsilə elektron qaydada müəyyən olunacaq.

9.2. Lotereya müddəti ərzində iştirakçıların siyahısı xüsusi proqrama daxil ediləcək və təsadüfi seçim funksiyası işə salınaraq qaliblər müəyyən olunacaq. Qaliblərin siyahısı “Excel” faylına inteqrasiyaolunacaq və Excel-in “Random” funksiyası ilə seçiləcək.

9.3. Siyahıda qaliblərin adı, soyadı, mobil telefon nömrəsi, iştirakçı nömrəsi və şans nömrəsi qeyd olunacaq.

## 10. Uduşların təqdim edilmə qaydası və müddəti

10.1. Tiraj oynanıldıqdan sonra qaliblərin elektron poçtuna və mobil nömrəsinə zəng və ya bildiriş vasitəsilə məlumat göndəriləcək.

Nümunə: Hörmətli müştəri! Siz xx.xx.2026 tarixində “Azərbaycan Hava Yolları” QSC tərəfindən keçirilən “Səma və dəniz” lotereyası tirajında XXXXX nömrəli şansınız üzrə Sea Breeze-dən mənzil hədiyyəqazandınız.

10.2. Stimullaşdırıcı lotereyanın şərtləri və müəyyən olunan qaliblərin təhlükəsizlik məqsədilə qismən gizlədilmiş (maskalanmış) formatda qeyd edilən fərdi məlumatları (ad, soyad, mobil nömrə, iştirakçınömrəsi, şans nömrəsi - nümunə Mü**** Ma******* Ba****: 055-657***: 77135***: XXXXX) AZAL-ın şəxsi kabinetində (https://www.azal.az/profile), sosial şəbəkə səhifələrində və kütləvi informasiya vasitələrində 5 iş günü ərzində dərc olunacaq. Qalib iştirakçılarla AZAL-ın Məlumat Mərkəzi vasitəsilə əlaqə saxlanılaraq uduşun təhvil verilməsi qaydası, müddəti və digər zəruri prosedurlar barədə ətraflı məlumat təqdimediləcək.

10.3. Uduşlar lotereya təşkilatçısı tərəfindən tiraj keçirilən gündən sonrakı 30 iş günü ərzində Heydər Əliyev Beynəlxalq Aeroportunun 2-ci Terminal binasında qaliblərə təqdim ediləcək. Uduşunrəsmiləşdirilməsi üçün qalib iştirakçı eyniləşdirmə məqsədilə şəxsiyyəti təsdiq edən etibarlı sənədi (şəxsiyyət vəsiqəsi və yaxud digər növ pasport) təqdim etməlidir.

10.4. Tiraj üzrə qalib gəlmiş iştirakçılar müvafiq tirajın uduş fondunun oynanılmasından etibarən 90 (doxsan) iş günü ərzində uduşlarını Heydər Əliyev Beynəlxalq Aeroportunun 2-ci Terminal binasından əldəetmədikləri təqdirdə, həmin uduşları almaq hüququnu itirmiş hesab edilirlər və uduş fondu AZAL-ın sərəncamında qalacaq.

10.5. Tirajın qalibi uduşu şəxsən əldə edə bilmədiyi halda, onun nümayəndəsi notarial qaydada təsdiq edilmiş müvafiq səlahiyyəti nəzərdə tutulan etibarnaməni Təşkilatçıya təqdim etməklə mükafatı təhvilala bilər.